**25.09.2020: Xəbər**

## Xəzər Universitetinin əməkdaşı mediator fəaliyyəti hüququ qazandı

Xəzər Universiteti Psixologiya departamentinin koordinatoru Mələk Kərimova 2020-ci il mayın 26-dan avqustun 13-dək Ədliyyə Akademiyası tərəfindən təşkil edilən "Mediatorların hazırlığı və ixtisaslarının artırılması təlim qaydası"na uyğun olaraq, ilkin hazırlıq kurslarında aktiv iştirak etdi və yekun imtahanı uğurla verərək, rəsmi olaraq mediator fəaliyyəti ilə məşqul olma mərhələsinə keçid aldı. Kurslarda beynəlxalq ekspertlər Ruslan Mirzəyev və Adi Qavrilla mediasiya prosesinə aid nəzəri məsələləri izah etdilər və praktiki məşğələlərlə, rollu oyunlarla öyrənmə prosesi dəstəklədilər. Kursun sonunda tədbir təşkil edildi. Tədbirdə Avropa İttifaqının Azərbaycandaki səfiri Kestutis Yankauskas, Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov, Mediasiya Şurasının İdarə Heyətinin sədri vəzifəsini icra edən Ruslan Mirzəyev çıxış edərək, kursu uğurla bitirənləri təbrik etdilər və mediasiyanın ölkəmiz üçün əhəmiyyətini və ilklər olmanın məsuliyyətini qeyd etdilər.

Qeyd edək ki, məhkəmələrin iş yükünün azaldılması üçün mediasiyanın tətbiqi ilə əlaqədar olaraq, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında 2019-cu il 3 aprel tarixli Fərmana uyğun olaraq, Mediasiya Şurası yaradılmışdır. Mediasiya təlimi qurumu kimi fəaliyyət göstərən Ədliyyə Akademiyası Avropa İttifaqı ilə birlikdə layihə həyata keçirərək, mediasiya üçün təlimçilər hazırlayır.

## Khazar University Member Gained the Right to Act as Mediator

Melek Kerimova, Coordinator of the Psychology Department at Khazar University, actively participated in the initial training courses organized by the Academy of Justice from May 26 to August 13, 2020, in accordance with the regulations on "Training and Professional Development of Mediators" and passed the final exam officially gaining the right to act as a mediator. During the courses, international experts Ruslan Mirzayev and Adi Gavrilla explained theoretical issues related to the mediation process and supported the learning process through practical exercises and role-playing games. An event was organized at the end of the course. Speaking at the event, EU Ambassador to Azerbaijan Kestutis Jankauskas, Acting Rector of the Academy of Justice Elchin Khalafov, Acting Chairman of the Mediation Council Ruslan Mirzayev congratulated the successful graduates and noted the importance of mediation for our country and the responsibility to be first.

It should be noted that in connection with the introduction of mediation to reduce the workload of courts, the Mediation Council was established in accordance with the Decree of President Ilham Aliyev dated April 3, 2019 "On the deepening of the reforms in the judicial-legal system". The Academy of Justice, which acts as a mediation training institution, is implementing a joint project with the European Union to train instructors for mediation.

***Hazırlayan: Mələk Kərimova***
***Qeyd: Şəkillər əlavə olunur.***